Azerbaijan Energy Regulatory Agency

# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

## VAKANSİYA ELANI

### Texniki normativ tənzimləmə şöbəsi–Böyük mütəxəssis (Enerji üzrə)

**Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.**

**VƏZİFƏ ÖHDƏLİKLƏRİ:**

- elektrik sahəsi üzrə qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının, məqsədli proqramların hazırlanmasında təkliflər vermək;
- istehlakçıların elektrik təchizatında kəsintilərə dair limitlərin müəyyənləşdirilməsi və müvafiq qaydaların hazırlanmasında iştirak etm
- enerji sahəsində fəaliyyət göstərən dövlət müəssisələrində hər il üçün yanacaq-enerji resurslarının istifadəsi zamanı enerjiyə qənaət planı üzrə təşkilati-texniki tədbirlərin yerinə yetirilməsi üçün təkliflər vermək;
- enerji təchizatı şəbəkələrində, habelə enerji verilməsində, qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qarşısının alınması üçün təşkilati-texniki tədbirlərin hazırlanmasında iştirak etmək;
- iş bölgüsünə əsasən müvafiq sahə üzrə məlumatları toplayıb təhlil aparmaq və nəticə olaraq təklilər vermək;
- vəzifəsini yerinə yetirmək üçün səlahiyyəti daxilində Agentliyin digər strukturlarından zəruri məlumat və sənədlər almaq;
- şöbənin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə eyni sahədə fəaliyyət göstərən beynəlxalq mütəxəssislərlə (ekspertlərlə) təcrübə mübadiləsi aparmaq və təkliflər vermək;
- şöbə müdirinin tapşırığı ilə digər təşkilatlarda, iclas, seminar, konfrans və müşavirələrdə Agentliyi təmsil etmək;
- Şöbəyə daxil olan ərizə, təklif və şikayətlərin araşdırılması və cavablandırılmasını təmin etmək;
- Şöbə müdirinin tapşırığı ilə hesabatlar, arayışlar və məlumatlar hazırlamaq;
- Vəzifəsi üzrə şöbə müdiri tərəfindən verilən digər tapşırıqları yerinə yetirmək.

**TƏLƏBLƏR:**

- Elektroenergetika və istilik energetikası üzrə texniki ali təhsil və ixtisas profilinə uyğun 3 ildən az olmayaraq iş təcrübəsi;
- Yaş həddi 25-40 aralığı;
- Microsoft Office proqramı üzrə hesabatları, arayış və təqdimatları yüksək səviyyədə hazırlamaq bacarığına malik olmalıdır;
- Müvafiq sahə üzrə qanunvericilik aktlarını və standartları bilməlidir;
- Texniki şərtləri, texniki tapşırıqları və digər sənədləri qarşılıqlı müqayisə etmək bacarığı;
- Azərbaycan dilini səlis bilməli, ingilis və ya rus dilini yüksək səviyyədə;
- Fikrini düzgün ifadə etmə və savadlı yazı qabiliyyəti;

**DİGƏR:**

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma.
- İş yerinin ünvanı: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 84.

**Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini vacancy@regulator.gov.az poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (Texniki normativ tənzimləmə şöbəsi – Böyük mütəxəssis (Enerji üzrə)) qeyd edin.**